# Məramı vətənpərvərlik olan “Vətən”




**Ümumrusiya azərbaycanlılarının “Vətən” mədəni-ictimai jurnalının ilk nömrəsi çapdan çıxıb.**

Bu jurnal 2002-ci ildən fəaliyyətə başlayan “Vətən” qəzetinin davamçısıdır. Dərginin təsisçisi və baş redaktoru iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent Namiq Muraddır. Baş ofisi Rusiya Federasiyası Mari-El Respublikasının paytaxtı Yoşkar-Ola şəhərində yerləşir. Həmin şəhərin “String” mətbəəsində nəşr olunan dərgi ayda bir dəfə işıq üzü görəcək.

“Vətən”in məramı 30 il yalnız Moskvada deyil, bütün Rusiya məkanında ilk ictimai qurum olan “Ocaq” Azərbaycan Mədəniyyət Cəmiyyətinin fəaliyyəti fonunda ölkəmizin ictimai, siyasi, mədəni həyatında baş verən hadisələri təbliğ etməkdir. Jurnal Rusiyada Azərbaycan və rus dillərində yayımlanır.

Loqosunda Bakının əfsanəvi “Qız Qalası”nı əks etdirən dərginin ilk nömrəsinin üz qabığında böyük mütəfəkkir, filosof-şair İmadəddin Nəsiminin portreti və şairin məşhur “Məndə sığar iki cahan” misrası yer alıb. Dərgi Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun həyat yoluna həsr olunmuş məqalə ilə başlayır. “Qafqazın Mirvarisi – Bakı” adlı yazıda isə Azərbaycanın COP29 Beynəlxalq konfransına evsahibliyi etməsindən qürurla söhbət açılır.

Jurnalın səhifələrində qitə yarışlarında parlaq qələbələrə imza atan “Qarabağ” futbol komandasının uğurları, eləcə də bu klubun şəhid kapitanı Allahverdi Bağırov və baş məşqçisi Qurban Qurbanov haqqında məqalələr yer alıb.

Son səhifələrdə Azərbaycan milli mətbəxinin təamları təqdim edilir. Eləcə də dərginin arxa qabığında “Şeyx Səfi” və ”Ərdəbil“ xalçalarının sehirli ilmələri nümayiş olunur. Jurnalın ilk nömrəsi 68 səhifədən ibarətdir, amma növbəti nömrələrin 100 səhifədən ibarət olması nəzərdə tutulub.

***Kəmalə ABDİNOVA***
***XQ***